*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 01-02 (9209-9210) | 31 yanvar 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- Bu gün biz 2015-ci ilin yekunlarını müzakirə edəcəyik. Eyni zamanda, 2016-cı ildə görüləcək işlər haqqında danışacağıq.



2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yaranmışdır. Əlbəttə ki, bu hadisələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir. Yaxın Şərqdə - İraqda, Suriyada, Liviyada münaqişələr, qanlı toqquşmalar, müharibələr davam edir.

Əlbəttə, bu, bizi ciddi narahat edir. Çünki biz də bu regionda yaşayırıq və regionda baş verən hadisələr istər-istəməz bizə də öz təsirini göstərir. Xarici müdaxilə nəticəsində Yaxın Şərqdən artıq qaçqın, köçkün vəziyyətinə düşmüş yüz minlərlə insan Avropaya pənah gətirir. Yüz minlərlə insan həlak olmuşdur. Milyonlarla insan qaçqın, köçkün vəziyyətində yaşayır.

Əlbəttə, bu insanların aqibəti bizi narahat edir. Çünki biz də vaxtilə çox böyük humanitar fəlakətlə üz-üzə qalmışdıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Biz yaxşı bilirik ki, bu, nə deməkdir. Ancaq bu gün Avropada buna miqrant böhranı deyirlər. Mən dəfələrlə demişəm ki, bu, ilk növbədə, vətənini, əmlakını, doğmalarını itirmiş insanlar üçün böhrandır.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin.

Biz həmişə çalışmışıq və öz səylərimizi göstərmişik ki, müsəlman aləmi daha da sıx birləşsin. Bu gün də çalışırıq və Azərbaycanda keçirilən müxtəlif tədbirlər, o cümlədən gələn il keçiriləcək İslam Həmrəylik Oyunları bu məqsədi güdür ki, müsəlman aləmində əlaqələr daha da yaxın olsun, münaqişələrə son qoyulsun, əməkdaşlıq üçün daha yaxşı zəmin yaradılsın.

Neftin qiyməti dünya bazarlarında kəskin şəkildə, 3-4 dəfə aşağı düşmüşdür. Bu, bizim gəlirlərimizə mənfi təsir göstərmişdir. Yəni, 2015-ci ildə geosiyasi və geoiqtisadi mənzərə çox narahatedici və ağırdır. Bu, reallıqdır.

O ki qaldı ölkəmizin inkişafına, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Qarşıda duran bütün vəzifələr icra edilmişdir. Ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Mən keçən il xarici ölkələrə 20 rəsmi və işgüzar səfər etmişəm. Xarici ölkələrin dövlət və hökumət başçıları Azərbaycana səfərlər etmişlər, 15 dövlət və hökumət başçısı Azərbaycanda olmuşdur. Bizim beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox uğurlu olmuşdur. Azərbaycan bütün məsələlərlə bağlı öz prinsipial mövqeyini bildirir, ifadə edir. Bizim mövqeyimiz haqq-ədalət, beynəlxalq hüquq əsasında formalaşır.

Əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamışdır. Deyə bilərəm ki, danışıqlar istiqamətində durğunluq müşahidə olunurdu. Sadəcə olaraq, ilin sonunda Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirilmişdir. Bu görüş də deyə bilərəm ki, formal xarakter daşıyırdı - görüş naminə görüş. Çünki 2015-ci ildə prezidentlər səviyyəsində görüş keçirilməmişdir. Ancaq bu görüşün heç bir faydası, yaxud da ki, nəticəsi olmamışdır. Bunun da səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir. Status-kvonu nə qədər çox mümkündürsə saxlamaq istəyir, işğal olunmuş torpaqlardan çəkilmək istəmir və danışıqları sadəcə olaraq bir proses kimi qəbul edir, vaxt uzatmaqla məşğuldur və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istəyir.

Bizim isə mövqeyimiz tam fərqlidir. Biz münaqişənin həllini istəyirik. Vasitəçilər də, Minsk qrupunun həmsədrləri də dəfələrlə bildirmişlər ki, onlar da münaqişənin həllini istəyirlər. Təbii ki, onların vəzifəsi bundan ibarətdir. Ancaq əfsuslar olsun ki, işğalçıya bu istiqamətdə heç bir ciddi təzyiq göstərilmir. Əlbəttə ki, Azərbaycan öz mövqeyini bundan sonra da müdafiə edəcək. Bizim mövqe beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, erməni işğalçı qüvvələri torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılsın. Onu da qeyd etməliyəm ki, postsovet məkanında buna oxşar münaqişələrlə bağlı BMT Təhlükəsizlik Şurası heç bir qətnamə qəbul etməmişdir.

Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlük təmin etmişdir və öz iradəsini diktə etmişdir. Onlarla işğalçı məhv edildi, Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: Erməni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər.

Biz bundan sonra da bütün imkanlardan istifadə edəcəyik. Siyasi, diplomatik və iqtisadi rıçaqlardan istifadə edəcəyik, eyni zamanda, döyüş potensialımızı gücləndirəcəyik və beləliklə, münaqişənin həllini yaxınlaşdıracağıq. Bir daha demək istəyirəm ki, bizim prinsipial mövqeyimiz ədalətə, o cümlədən tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanır.

2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Bu da çox müsbət haldır. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməmişdir. Bu da mümkün deyildi. Çünki qeyd etdiyim kimi, neftin qiyməti 3-4 dəfə aşağı düşmüşdür. Manatın məzənnəsi devalvasiyaya uğramışdır. Bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi imkan vermirdi ki, manatın məzənnəsi əvvəlki səviyyədə qalsın. Eyni zamanda, bizim qonşu ölkələrdə də milli valyutalar 100 faiz, bəzi hallarda ondan da çox dərəcədə devalvasiyaya uğramışdır. Belə olan halda Azərbaycanda istehsal olunan məhsullar öz rəqabət qabiliyyətliliyini itirirdi, bizim istehsalçılara çox böyük təzyiq göstərilirdi. Sadəcə olaraq, manatı əvvəlki səviyyədə saxlamaq qeyri-mümkün idi. Yəni, bu, qaçılmaz bir addım idi. Bunun səbəbi Azərbaycandan kənarda yaranmışdır. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsini mən şəxsən iqtisadi amillərlə, sırf iqtisadi amillərlə bağlaya bilmərəm. Çünki dünya iqtisadiyyatı o qədər tənəzzülə uğramayıb ki, neftin qiyməti 3-4 dəfə aşağı düşsün. Mənim fikrimcə, burada ilk növbədə siyasi amillər öz rolunu oynayıbdır. Kimsə kiminləsə mübarizə aparır, biz isə bundan əziyyət çəkirik. Ona görə bu da əlbəttə ki, bizim iqtisadi vəziyyətimizə mənfi təsir göstərmişdir. Ancaq biz çalışacağıq ki, bu məzənnənin dəyişməsi ilə bağlı mənfi fəsadların aşağı salınması üçün daha da fəal iş görək. Bu barədə mən bir qədər sonra öz fikirlərimi bildirəcəyəm.

Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı artıb. Ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bu, məni çox sevindirir. Çünki bu, son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir, aparılan islahatların nəticəsidir. Hesab edirəm ki, qeyri-neft sənayesinin 8,4 faiz artması bizim əsas göstəricimizdir.

Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədir. Bu da çox müsbət haldır. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi öz potensialını təqdim edir. Başqa iqtisadi göstəricilər də müsbət dinamikanı göstərir. Yəni, 2015-ci ildə bütün bu geosiyasi və iqtisadi amilləri nəzərə alsaq, iqtisadi inkişafa nail olmaq özlüyündə böyük nailiyyətdir.

Keçən il bütün sosial proqramlar icra edilmişdir. Heç bir ixtisar olmamışdır. İnsanlara daha da böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilmişdir. Bu sahədə də islahatlar aparılıb və bu yardımı alan insanların sayı azalıb. Bunun hesabına həqiqətən bu yardıma möhtac olan ailələrə daha da böyük məbləğdə yardım verilir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artmışdır. Sosial infrastruktur layihələri icra edilmişdir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, ancaq bu sahəyə biz vəsaiti təşkil edə bilmişik. Altmışa yaxın tibb müəssisəsi tikilib-təmir edilib, 20-dən çox məktəb təmir edilib-tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir. Yəni, sosial infrastruktur layihələri Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuşdur və onlar icra edildi, bu il də icra edilməlidir.

Regionların inkişafı 2015-ci ildə sürətlə getmişdir. Mən dəfələrlə bölgələrdə olmuşam. Vəziyyətlə tanış olurdum, görürdüm ki, hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84 mini daimi iş yeridir. Bununla bərabər, onu da deməliyəm ki, 40 min iş yeri bağlanmışdır. Ancaq buna baxmayaraq, 84 min daimi iş yeri açılmışdır, 40 min iş yeri bağlanmışdır. Yenə də burada biz müsbət dinamikanı görürük. Ancaq bununla bərabər, iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcək. Bu gün biz bu barədə də danışacağıq.

Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Ötən il əhalinin sayı 114 min nəfər artıb. Bu, çox müsbət haldır, ümumi iqtisadi inkişafın təzahürüdür. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki bir il ərzində əhalinin sayının 114 min nəfər artması gələcəkdə yeni iş yerləri, bir neçə ildən sonra yeni uşaq bağçaları, yeni məktəblər deməkdir. Biz bunları etməliyik. Yəni, bizim üstünlüyümüz ondan ibarətdir ki, əhali artır. Eyni zamanda, bu, bizim iqtisadiyyatımıza əlavə yükdür. Biz elə işləməliyik ki, iqtisadi inkişaf, açılan iş yerləri, yaradılan sosial infrastruktur demoqrafik inkişafı üstələsin. Bax, hökumət qarşısında bu vəzifə qoyulur və biz bu vəzifəni icra etməliyik.

Keçən il TANAP layihəsinin inşası başlanmışdır. Bu, ölkəmiz, region və ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli layihədir, strateji əhəmiyyət daşıyan bir layihədir. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı dünya bazarlarına çıxaraq. Avropa isə alternativ qaz mənbəyi əldə edəcək. Tranzit ölkələr, - eyni zamanda, onlar istehlakçı ölkələrdir, - bundan böyük mənfəət götürəcəklər. Yəni, bu layihənin bütün iştirakçıları böyük siyasi və iqtisadi dividend əldə edəcəklər. Bu layihənin təşəbbüskarı Azərbaycandır. Əsas iqtisadi yük bizim üzərimizə düşür və biz bu layihəni icra etməyə tərəfdaş ölkələrlə başlamışıq. Keçən il Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulub və işlər uğurla davam etdirilir. Bu il artıq kəmərin inşası başlayır.

2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş vermişdir. İlk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan bu Oyunları ən yüksək səviyyədə keçirə bilmişdir. Baxmayaraq ki, Oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi, biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirdik. Bütün Avropaya və dünyaya müstəqil ölkəmizin imkanlarını, xalqımızın qonaqpərvərliyini, gözəl Bakı şəhərimizi göstərdik. Azərbaycan reallıqlarını 6 min idmançı, minlərlə qonaq öz gözləri ilə görə bilmişlər. Bu reallıqlar bizim nüfuzumuzu daha da artırır və gələcəkdə Azərbaycana qoyulacaq investisiyaların həcmini, Azərbaycana gələcək turistlərin sayını artıracaq. Yəni, Avropa Oyunları sadəcə olaraq, dünyaya bizim təqdimatımız deyildi. Onun çox böyük praktiki nəticələri olacaqdır. Biz müasir idman, xidmət və nəqliyyat infrastrukturu yaratmışıq. Yəni, bütün bunlar Azərbaycan xalqının sərvətidir və bu Oyunlar əlbəttə ki, müstəqil ölkəmizin qüdrətini göstərmişdir. Bu Oyunlar göstərdi ki, biz ən mötəbər beynəlxalq tədbiri ən yüksək səviyyədə keçirə bilərik. Əlbəttə ki, idmançılarımız da bizi sevindirdilər. Azərbaycan komanda hesabında ikinci yeri tutub. İdmançılarımız 56 medal qazanmışlar ki, onlardan 21-i qızıl medaldır. Biz idman gücümüzü də göstərdik. Əslində idman hər bir ölkənin ümumi inkişafını əks etdirir. İnkişaf etmiş ölkələr idman meydanlarında daha çox qələbə qazanırlar. Azərbaycan idman dövlətidir, inkişafda olan dövlətdir və biz bu tarixi missiyanı şərəflə yerinə yetiririk.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin həyatında əlamətdar hadisə idi. Parlament seçkiləri ədalətli, şəffaf və demokratiya şəraitində keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər, o cümlədən Avropa Şurasının nümayəndələri, MDB ölkələrinin nümayəndələri və digər müşahidəçilər parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndirmişlər ki, seçkilər ədalətli, şəffaf şəkildə və demokratik şəraitdə keçirilmişdir. Bütün beynəlxalq rəy sorğuları da rəsmi nəticələri təsdiqləyir. Yəni, bu, çox önəmli hadisədir. Çünki biz demokratiya yolu ilə gedirik, demokratik cəmiyyət qururuq. İnsan haqları, demokratik inkişaf daim bizim prioritet istiqamətlərimizdir. Seçkilər, istənilən seçkilər bu istiqamətdə bir sınaqdır. Biz bu sınaqdan şərəflə çıxdıq. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə ifadə olunmuşdur. Eyni zamanda, aparılan siyasətə xalq tərəfindən yüksək qiymət verilmişdir. Çünki mən seçkilərin nəticələrini belə qəbul edirəm. Bir tərəfdən Azərbaycan dövləti demokratiyaya sadiq olduğunu bir daha nümayiş etdirmişdir, digər tərəfdən, parlament seçkilərinin nəticələri aparılan siyasətə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə görə Azərbaycan vətəndaşlarına minnətdaram və bəyan etmək istəyirəm ki, bundan sonra da biz ölkəmizi inamla irəliyə aparacağıq. Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək. Azərbaycanda sabitlik təmin edilir, ictimai-siyasi vəziyyət müsbətdir. Azərbaycanda xalqla iqtidar arasında birlik möhkəmlənir və bu amillər bizim uğurlu inkişafımızı şərtləndirir.

İclasda maliyyə naziri Samir Şərifov, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov, kənd təsərrüfatı naziri Heydər Əsədov çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söyləmişdir.

## 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə **qərara alıram:**

**1.** 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alaraq, 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 11 yanvar 2016-cı il.***



xatirəsini yad etmək üçün şəhidlər xiyabanına gəlmişdir. Şəhidlərin ruhuna dua oxunduqdan sonra Ayaz Əsgərov şəhidlərin abidəsi önünə gül dəstələri qoymuş, onların xatirəsini dərin ehtiramla yad etmişdir.

Sonra tədbirdə iştirak edən idarə, müəssisə, təşkilat rəhbərləri, rayon sakinləri, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri Şəhidlər xiyabanında abidənin önünə gələrək şəhidlərin ölməz ruhunu yad etmiş, qırmızı qərənfillər qoymuşlar.

# RAYONUMUZDA 20 YANVAR FACİƏSİNİN 26-CI İLDÖNÜMÜ QEYD EDİLMİŞDİR



**Azərbaycan xalqının azadlığı uğrunda canlarından keçmiş, respublikamızın müstəqilliyi yolunda öz həyatlarını qurban vermiş 20 Yanvar şəhidlərinin xatirəsi yad edilmişdir.**

Bununla əlaqədar şəhərin mərkəzindəki Şəhidlər xiyabanında mərasim keçirilmişdir. İnsanlar öz ehtiramlarını bildirmək üçün əllərində qırmızı qərənfil və tər gül dəstələri bu müqəddəs ünvana gəlmişdilər. Qazax Cümə məscidində şəhidlərin ruhuna dualar oxunmuş, xatirələri anılmışdır.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov 20 Yanvar şəhidlərinin

Saat 12:00-da respublikamızın hər yerində olduğu kimi rayonumuzda da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Küçələrdə hərəkət dayandırılmış, səs siqnalları verilmişdir.

**"GÖYƏZƏN"**

# 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təntənəli toplantı və bayram şənlikləri keçirilmişdir



**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da silsilə tədbirlər həyata keçirilmişdir. Şəhər və kəndlər bayramsayağı bəzədilmiş, idarə, müəssisə və təşkilatlarda, məktəblərdə və məktəbəqədər tərbiyə müəssisələrində yolkalar bəzədilmiş, rayonda bayram günlərinin şən və maraqlı keçirilməsi üçün tədbirlər planı hazırlanmışdır.**

Həmin tədbirlər çərçivəsində rayon İcra Hakimiyyətində geniş toplantı keçirilmişdir. Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev toplantını giriş sözü ilə açaraq ətraflı çıxış etmişdir. F.Nağdalıyev 2015-ci ildə ölkəmizdə və Qazax rayonunda sosial-iqtisadi inkişaf sahəsində əldə olunmuş uğurlar barədə toplantı iştirakçılarına məlumat verərək bildirmişdir ki, ulu öndər Heydər Əliyevin işləyib hazırlamış olduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. O, sonra 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar toplantı iştirakçılarına geniş məlumat vermişdir. Xalqımızı bayram münasibətilə təbrik etmiş, 2016-cı ildə hamıya möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulamışdır. Toplantıda bir-birindən maraqlı çıxışlar olmuş və fikirlər səsləndirilmişdir. Çıxış edənlər ötən il əldə olunmuş uğurlardan və Dünya Azərbaycanlılarının Həmrəyliyindən danışmışlar.

Təntənəli toplantıdan sonra Qazax şəhərindəki Mədəniyyət Mərkəzinin qarşısında möhtəşəm bayram şənliyi başlamışdır. "Vurğun" instrumental ansamblının üzvlərinin ifa etdiyi musiqilər, mahnı və rəqslər bayram əhval-ruhiyyəsinə daha bir xoş ovqat qatmışdır. Yeni ilin əsas atributları olan Şaxta baba və Qar qızın rayon sakinlərini şənliyə çağırması, söylədikləri şeirlər və əhvalatlar şənlik iştirakçılarına unudulmaz anlar bəxş etmişdir.

Qazax şəhərinin digər hissəsində, Uşaq Əyləncə Mərkəzində də böyük bayram izdihamı var idi. Əyləncə Mərkəzinin bir neçə yerində yolkalar qurulmuş, məktəbəqədər tərbiyə müəssisələrində və eləcə də orta məktəblərdə tərbiyə alan azyaşlı körpələr yolka ətrafında dövrə vurur və



şənlənirdilər. Xoş musiqi sədaları və əyləncəli proqramlar azyaşlı uşaqların bayram şənliklərini daha da rəngarəng, maraqlı və yaddaqalan etmişdir. Şənlik gün ərzində davam etmiş və atəşfəşanlıqla başa çatmışdır.

Bayramla əlaqədar aztəminatlı ailələrə, uşaqlara bayram sovqatları və hədiyyələr verilmişdir.



# "İGİDLƏRİN BEŞİYİ ELİM MƏNİM" ADLI FİLMİN TƏQDİMAT MƏRASİMİ OLMUŞDUR

**Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "İgidlərin beşiyi elim mənim" adlı layihə çərçivəsində hazırlanmış, Milli Qəhrəmanlarımızın döyüş yolunu özündə əks etdirən filimin təqdimat mərasimi olmuşdur.**

Ədəbiyyat Muzeyinin akt zalında keçirilən tədbirdə İcra Hakimiyyətinin məsul işçiləri, fəal gənclər, hərbçilər, bir qrup polis əməkdaşı, filmdə adları çəkilən şəhidlərin doğmaları, yaxınları, döyüş yoldaşları, idarə, təşkilat rəhbərləri, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Azərbaycan Yazçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, filmin ssenari müəllifi Taleh Mansur mərasimi giriş sözü ilə açaraq bildirmişdir ki, "İgidlərin beşiyi elim mənim" layihəsinin ideyasını region gənclərinin vətənpərvərlik ruhunda tərbiyəsi və igid şəhidlərimizin şərəfli döyüş yolunun tərənnümü təşkil edir. Layihə çərçivəsində şəhidlərimizin qəhrəmanlığını əks etdirən qısametrajlı filmin təqdimatı gənclərimizə vətənpərvərlik hissinin aşılanmasında və yeni nəslin bu ruhda tərbiyə olunmasında dəstək göstərəcəkdir.

Sonra "İgidlərin beşiyi elim mənim" adlı qısametrajlı filim nümayiş olunmuşdur. Alqışlarla qarşılanan filmin nümayişindən sonra qonaqlar film haqqında öz təəssüratlarını bölüşmüşlər.

Filmin rejissoru Şamil Muradlı, "Avey" İdman Klubunun Prezidenti Arzuman Abdulkərimov, AYB Qazax zona filialının sədri, şair, əməkdar incəsənət xadimi Barat Vüsal, Qazax rayon İcra Hakimiyyətinin məsul işçisi Sərdar Orucov, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, Milli Qəhrəman Mərifət Nəsibovun qardaşı Hümbət Nəsibov, Milli Qəhrəman Şamoy Çobanovun döyüş yoldaşı Hüseyn Əhmədov və başqaları çıxış edərək film haqqında fikirlərini bildirmiş, filmin ərsəyə gəlməsində əməyi olan insanlara öz minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, film Qazax mahalının ümumi mənzərəsini, milli mənəvi dəyərləri və milli ruhu özündə birləşdirən bir yaddaş nümunəsidir. Qazax elinin qəhrəman igidlərindən bəhs edən film region gənclərinə nümayiş etdirilməklə Azərbaycan Respublikasının "Gənclər Siyasəti"nə bir töhfədir.

Tədbirdə "Avey" İdman Klubu tərəfindən filmin yaradıcı heyətinə Fəxri Fərman təqdim olunmuşdur.

**Nüşabə HÜSEYNOVA**

# "Təhlükəsiz Oyun Meydançası"nın açılışı olmuşdur

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti Niderland krallığının Azərbaycandakı Səfirliyi ilə əməkdaşlığı sahəsində Qazax rayonunun Cəfərli kəndində uşaqların mina və partlamamış hərbi sürsatlardan qorunması məqsədilə yaradılmış "Təhlükəsiz Oyun Meydançası"nın açılış mərasimi keçirilmişdir.**

Mərasimi rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev açmış və Niderland krallığının Azərbaycandakı Səfiri Robert Jan Qabrielseni və səfirin köməkçisi Casper Van Vlokhoveni salamlamışdır. Azərbaycan dövləti və Niderland krallığı arasındakı sosial-iqtisadi əməkdaşlıq və Təhlükəsiz Oyun Meydançasının əhəmiyyəti barədə mərasim iştirakçılarına məlumat vermişdir.

Mərasimdə səfir Robert Jan Qabrielsen çıxış etmiş, Azərbaycan dövləti ilə Niderland Krallığı arasındakı bu cür



əməkdaşlığın gələcəkdə daha da genişləndiriləcəyini söyləmişdir.

Tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin icraçı katibi Bayram Vəliyev, Miqrasiya şöbəsinin müdiri-Silahlara Qarşı Mübarizə proqramı üzrə məsul şəxs Məmməd Kətənov və miqrasiya şöbəsinin əməkdaşı Sona Hacıyeva iştirak etmişlər.

Sonda səfir Robert Jan Qabrielsenə rayon İcra Hakimiyyəti tərəfindən xatirə hədiyyələri verilmişdir.

# "YAZAR OLMAQ İSTƏYİRƏM" ADLI LAYİHƏ HƏYATA KEÇİRİLMİŞDİR

***Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Yazar olmaq istəyirəm" adlı layihə çərçivəsində tədbir keçirilmişdir. Şəhər 1 saylı tam orta məktəbdə keçirilən tədbirdə gənc yazarlar, poeziya sevən məktəblilər, müəllimlər və KİV nümayəndələri iştirak etmişdir. Layihənin keçirilməsində məqsəd Ağstafa və Qazax rayon məktəbliləri arasında yazar olmaq istəyən şagirdlərlə görüşmək, onları üzə çıxarmaq və yazdıqları hekayələrlə tanış olmaqdır. Həmçinin layihəyə əsasən "Hekayə yazı" müsabiqəsində seçilmiş 10 hekayə çap olunacaqdır.***

2 mərhələdən ibarət olan layihə çərçivəsində məktəblilər öz bilik və bacarıqlarını nümayiş etdirmişlər. Birinci mərhələdə yazar-ekspet Rüfət Əhmədzadə şagirdlərə yazar olmaq üçün hansı keyfiyyətlərin olmasından, hansı mövzulara müraciət etmələrindən danışmış, onlarda olan istedadın üzə çıxarılmasında belə layihələrin olduqca böyük əhəmiyyət kəsb etməsindən söz açmışdır.

İkinci mərhələdə şagirdlərə sərbəst mövzu ətrafında öz fikirlərini çatdırmaları tövsiyə olunmuşdur. Sonra bütün yazılar yazar-ekspert tərəfindən yoxlanılaraq aralarından 5 nəfərin yazısı daha çox fərqlənmişdir. Qazax gənclərindən Gülər Hüseynova I, Mələk Əlili II, Aytən Həsənova III, Nərmin Əhmədzadə IV, Ayşə Əliyeva V yer tutmuşlar.

Layihə rəhbəri Gülnar Nəzərəova çıxış edərək layihə haqqında ətraflı məlumat vermiş, Gənclər Fondunun həyata keçirdiyi belə layihələrin əhəmiyyətindən danışmışdır. Bu layihənin həyata keçirilməsində əməyi keçən insanlara, rayon rəhbərliyinə öz minnətdarlığını bildirmişdir.

Sonda yer tutan gənclərə sertifikat, hədiyyə və R.Əhmədzadənin "Adım anonim qalsın" adlı kitabı təqdim olunmuşdur.

**"GÖYƏZƏN"**

## YUSİF SƏMƏDOĞLU-80

# XALQ YAZIÇISININ YUBİLEYİ QEYD OLUNMUŞDUR

**Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialı və Orta Salahlı kənd kitabxanasının birgə təşkilatçılığı ilə xalq yazıçısı Yusif Səmədoğlunun anadan olmasının 80 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Ədəbiyyat Muzeyinin akt zalında keçirilən tədbirdə İcra Hakimiyyətinin məsul işçiləri, şairlər, gənc yazarlar, poeziya sevərlər, idarə, təşkilat rəhbərləri, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**

Tədbirdə ilk öncə AYB Qazax zona filialı və Orta Salahlı kənd kitabxanasının sifarişi ilə hazırlanmış Azərbaycanın xalq yazıçısı Yusif Səmədoğlunun həyat və yaradıcılığından bəhs edən "Pıçıltı" adlı qısametrajlı sənədli filmin birinci hissəsi nümayiş olunmuşdur. Yazıçının səs yazısından istifadə edilmiş filmdə həyat və fəaliyyəti, yaradıcılığı tam dolğunluğu ilə əks olunmuşdur.

AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi Barat Vüsal tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, xalq yazıçısı Yusif Səmədoğlu XX əsr Azərbaycan ziyalılığının ən ali keyfiyyətlərini öz şəxsiyyətində daşıyan, mənsub olduğu nəsli təmsil edən bir insan olmuşdur. O, həyatı boyu, həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində durmuş, azadlıq, demokratiya, müstəqillik duyğusu ilə yaşamışdır. Y.Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutaraq, həyata, gerçəkliyə fərqli münasibəti, dünyagörüşü ilə seçilmişdir.

Tədbirin aparıcısı Azərbaycan Yazçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü Taleh Mansur Y.Səmədoğlunun həyat və yaradıcılığından danışmışdır. Qazax rayon İcra Hakimiyyətinin məsul işçisi Sərdar Orucov, şair Mustafa Rasimoğlu, Orta Salahlı kənd kitabxanasının müdiri Svetlana Muradova, Qazax Dövlət Dram Teatrının direktoru Saqif İsgəndərov, ADPU Qazax filialının müəllimi Heyran Vəkilova, tələbələrdən Şəfəq Məmmədova və Kübra Əhmədli çıxış edərək Yusif Səmədoğlu yaradıcılığından, onun haqqında olan xatirələrdən, onun Azərbaycan ədəbiyyatındakı xidmətlərindən danışaraq tədbir iştirakçılarına geniş məlumat vermişlər.

Tədbirdə Qazax Dövlət Dram Teatrı aktyorlarının ifasında yubilyarın "220 nömrəli otaq" adlı hekayəsinin motivləri əsasında hazırlanmış səhnəcik təqdim olunmuşdur. Gənc aşıq Samir Cəlaloğlunun ifası alqışlarla qarşılanmışdır.

Sonda tədbir yazıçının həyat və yaradıcılığından bəhs edən "Pıçıltı" adlı qısametrajlı sənədli filmin ikinci hissəsinin nümayişi ilə başa çatmışdır.

**Nüşabə HÜSEYNOVA**

# TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

**Xalqımıza qarşı törədilən 20 Yanvar faciəsindən 26 il ötür. Bununla əlaqədar Qazax rayon İcra Hakimiyyəti Başçısının 28 dekabr 2015-ci il tarixli 20/118 nömrəli Sərəncamına əsasən tədbirlər planı hazırlanmışdır.**

Rayonun idarə, müəssisə və təşkilatlarında 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü ilə bağlı tədbirlərin təşkil olunması tədbirlər planında tövsiyə olunmuşdur.

Tədbirlər planında Qazax Dövlət Dram Teatrında 20 Yanvar faciəsinə həsr olunmuş tamaşanın hazırlanması və göstərilməsi öz əksini tapmışdır.

Həmçinin rayonun bütün tədris müəssisələrində 20 Yanvar faciəsinə həsr edilmiş xüsusi dərsin aparılması da tədbirlər planında göstərilmişdir.

Tədbirlər planına əsasən Qazax Cümə Məscidində və kəndlərdə olan məscidlərdə 20 Yanvar şəhidlərinin xatirəsinə mərasimlər keçirilməsi tapşırılmışdır.

O cümlədən tədbirlər planında 20 Yanvar günü rayon ictimaiyyətinin Qazax şəhərində Şəhidlər Xiyabanındakı abidənin önündə toplantısının təşkili, abidə önünə əklil və güllərin qoyulması qeyd edilmişdir.

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar təşkil edilən tədbirlərin "Göyəzən" rayon qəzetində geniş işıqlandırılması da tədbirlər planında vurğulanmışdır.

20 Yanvar günü Qazax şəhərində ictimai asayişin qorunması, Şəhidlər Xiyabanına gələnlərin təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi nəzərdə tutulmuşdur.

20 Yanvar günü Qazax şəhəri Şəhidlər Xiyabanına gələnlərə lazım olan halda ilkin tibbi yardım göstərilməsinin təşkili tədbirlər planında öz əksini tapmışdır.

Şəhidlər Xiyabanında gün ərzində matəm musiqisinin səsləndirilməsinin təmin edilməsi, rayon ərazisində Bakı vaxtı ilə saat 12.00-da şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və avtomobillər vasitəsilə səs siqnallarının verilməsi tədbirlər planında göstərilmişdir.

Tədbirlər planında 20 Yanvar faciəsinin iyirmi altıncı ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq rayonun bütün yaşayış məntəqələrində Azərbaycanın dövlət bayraqlarının endirilməsi də nəzərdə tutulmuşdur.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

# Qazax Olimpiya İdman Kompleksində ilə yekun vurulmuşdur

**Qazax Olimpiya İdman Kompleksində ilə yekun vurulmuşdur. Bu münasibətlə Olimpiya İdman Kompleksində təntənəli tədbir keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, idmançılar, onların məşqçiləri, idman sevərlər, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**



Olimpiya İdman Kompleksinin xidmət şöbəsinin rəisi, Əməkdar məşqçi Azər Əliyev tədbiri giriş sözü ilə açmışdır. Dövlət Himni səsləndirilmişdir. Azər Əliyev Olimpiya İdman Kompleksində 2015-ci il ərzində görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, ötən il Olimpiya İdman Kompleksində idmanın müxtəlif növləri üzrə 9 idman yarışı keçirilmişdir. Bu yarışların nəticəsi olaraq, bütövlükdə 104 medal qazanılmışdır. Bu medallar, rayon, zona, respublika, avropa və dünya çempionatlarına aid olmuşdur.

Tədbirdə RİHB Aparatının şöbə müdiri Gündüz Abışov çıxış etmiş və qazanılmış uğurlar münasibətilə bütün idmançıları və onların məşqçilərini rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun adından təbrik etmişdir. Onlara qarşıdakı illərdə də yeni-yeni uğurlar arzulamışdır.

Rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Gənclər və İdman idarəsinin rəis müavini Şahin Namazov və digər natiqlər öz çıxışlarında rayonun idman uğurları barədə ətraflı danışmışlar.

Sonra il ərzində fərqlənmiş və qalib gəlmiş 25 nəfər idmançıya mükafatlar təqdim olunmuşdur. Əməkdar məşqçi Əliyev Azər Nürəddin oğlu "İlin ən yaxşı məşqçisi", 8 qat Avropa və 4 qat Dünya çempionu Vəkilov Qismət Səxavət oğlu "İlin ən yaxşı idmançısı" seçilmişdir.

Tədbirin sonunda iştirakçılar gənclərin fiziki inkişafı və idmana yaradılmış şəraitə görə Prezident İlham Əliyev cənablarına dərin minnətdarlıqlarını bildirmişlər.

# "YETƏR Kİ, İNSANLARA TEZ-TEZ BAŞ ÇƏKƏK, QAYĞILARI İLƏ MARAQLANAQ"

## Millət vəkili Kamran Nəbizadənin "Göyəzən" qəzetinə müsahibəsi. Söhbəti aparır Elçin İsmayil

***- Kamran müəllim! Sizi "Göyəzən" qəzeti redaksiyasında salamlamaqdan çox məmnunam. İşlərinizin çox olmasına baxmayaraq qəzetə müsahibə verməyə razı olduğunuz üçün Sizə öz dərin minnətdarlığımı bildirirəm.***

- Çox sağ olun. Mən də öz növbəmdə qəzetinizin göstərdiyi diqqətə görə təşəkkür edirəm. Rayonun ictimai, siyasi və mədəni həyatında "Göyəzən" qəzetinin oynadığı rol bir vətəndaş kimi məni çox razı salır. Təbliğat kampaniyası zamanı müraciət olunsa da seçki qanunvericiliyinin tələblərinə görə bu müsahibə alınmadı. İndi isə böyük məmnuniyyətlə redaksiyanıza gəldim və suallarınızı qarşılamağa hazıram. Hesab edirəm ki, sualların əhatə dairəsi imkan verəcək ki, verəcəyim cavablarla seçicilərimə hazırki fəaliyyətimlə bağlı daha ətraflı məlumatlar verim. Ümumiyyətlə isə çalışacam ki, fəaliyyətim dövründə qəzetinizlə sıx əməkdaşlıq edim.

***- Yadımdadır, Siz parlament seçkilərində təbliğata rayonun sərhəd kəndlərindən başladınız. Elə seçicilərlə ilk görüşləri də sərhəddə yaşayan əhali ilə keçirdiniz.***

- Tamamilə sizinlə razıyam. Seçki ərəfəsində seçicilərlə görüş qrafiki müəyyənləşdirilərkən mənim təşəbbüsümlə belə görüşlərin ilk olaraq rayonun sərhədyanı kəndlərindən başlanmasına qərar verdik. Həmin görüşlərdə aldığım təəssüratlar, gördüklərim və yerli əhali ilə söhbətlərimdə aldığım məlumatlar, sonrakı digər görüşlərimdə öz təsirini göstərdi. Mən deyərdim ki, o kəndlərdə yaşayan insanlar əsl qəhrəmandırlar və hər cür diqqətə, hörmətə layiqdirlər. Onların da elə istədikləri hər şeydən öncə göstərilən diqqətdir, xoş münasibətdir. Cəmiyyətdəki mövqeyindən asılı olmayaraq hər birimiz o kənlərdə yaşan insanlara lazımi diqqət və qayğını göstərməliyik. Onların sosial problemləri ilə ilk növbədə məşğul olmalıyıq. Mən elə seçkilərdən sonra deputat kimi ilk görüşümə də yenə həmin sərhəd kəndlərindən başladım. Siz təsəvvür edirsinizmi, orada yaşayan insanlar sadəcə verdiyim vədə əməl edərək ilk olaraq onlarla görüşə gəldiyimi necə razılıqla qarşıladılar. Onların istədikləri elə də çox şey deyil. Yetər ki, orada yaşayan insanlara tez-tez baş çəkək, qayğıları ilə maraqlanaq. Rayon rəhbərliyi də həmin kəndlərin problemlərini daim diqqətdə saxlayır və lazımi köməklikləri göstərir. Bildiyimə görə qeyri-hökumət təşkilatları, humanitar təşkilatlar da nəzərə çarpacaq dərəcədə bu işlərdə fəaldırlar. Sərhədyanı kəndlərə və onların sakinlərinə diqqət və



qayğı bizim gündəlik işlərimizin tərkib hissəsi olmalıdır.

***- Kamran müəllim, Siz hələ təbliğat dövründə seçicilərin qaldırdıqları məsələlərə çox həssaslıqla yanaşır və onları qeydiyyata alırdınız. Düzdür, Sizin bir deputat kimi fəaliyyətə başladığınız gündən az bir zaman keçib. Ancaq yenə də olsun, bu istiqamətdə hər hansı bir iş görülübmü?***

- Namizədliyim qeydiyyata alınandan sonra rayonumuzun sosial-iqtisadi göstəriciləri ilə yaxından tanış oldum. Problemləri öyrənib, onları qruplaşdırmağa çalışdım. Seçiciləyim halda, haradan, nədən başlamalı olduğumu və nə işlər görəcəyimi müəyyənləşdirmək istədim. Bununla əlaqədar olan aidiyyatı dövlət qurumlarından sorğular vasitəsilə rayonun mövcud inkişaf və problem məsələlərini öyrəndim.

Artıq seçki başa çatıb və üç aydır parlamentdəyəm. Düzdür, əsas işim qanunvericilik məsələsi olsa da, seçkiqabağı platformamın müddəalarının icrasına da biganə deyiləm. Vaxtaşırı rayonun əsas problemlərindən olan su və yol məsələlərinin həlli ilə məşğul oluram. Qeyd edim ki, seçkilərdən az vaxt keçməsinə baxmayaraq, kifayət qədər sayda şəxsi müraciətlər olub və açığını deyim ki, həllinə köməklik göstərmişəm. Kəmərli kənd orta məktəbi qazlaşdırılsa da bəzi məsələlər həllini tapmadığından istilik təchizatında problem var idi. Həmin məsələnin qısa müddət ərzində həllinə nail oldum. Qaymaqlı kənd məktəbinin həyətindəki idman meydançası bərbad vəziyyətdə idi. Qısa müddət ərzində lazımi işlər görüldü və meydança şagirdlərin istifadəsinə verildi. Sadəcə elə məsələlər var ki, onların həllinə vaxt, zaman lazımdır. Yəni, o müraciətlərin həlli müəyyən mərhələlərdən keçməlidir. Gərək insanlarımız da bu reallıqları qəbul etsinlər.

***- Kamran müəllim! Həyatdan doğan bir aksioma var. Hər bir seçici istəyir ki, onun seçdiyi deputat yanında olsun, görüşlər keçirsin. Seçki ərəfəsində də Siz "Mən daima sizin yanınızda olacağam" - deyə dəfələrlə vurğulayırdınız. Elə yerli əhali də Sizdən ancaq bunu istəyir.***

- Suallarınız aydındır. Bunu siz də bilirsiniz. Seçicilərim də bilməlidirlər ki, praktiki cəhətdən daim onların yanında olmaq mümkün deyil. Ancaq keçən qısa zaman da göstərdi ki, mən seçki öncəsi verdiyim vədlərə əməl etməyə çalışıram. Əvvəla, mənim vəd verməkdən xoşum gəlmir. Vəd verdimsə, gərək ona əməl edəm. Ona görə də nələrə vəd verdiyimin fərqindəyəm və onları inşallah zamanında həll etməyə çalışacağam. Keçən üç ay ərzində 2 dəfə rayonda oldum, xüsusilə sərhədyanı kəndlərdə yerləşən əhali və şəhid ailələrinin üzvləri ilə görüşdüm. Və tam səmimiyyətlə deyirəm ki, insanlar bu görüşlərdən razılıqlarını bildirməklə yanaşı, heç cari problemlərini belə dilə gətirmək istəmirlər. Yetər ki, onlara qarşı diqqətli olaq.

***- Bu gün Siz Milli Məclisdəsiniz və parlament iclaslarında iştirak edirsiniz. Bu da təbiidir. Bu istiqamətdən çıxış edərək bir məsələyə münasibətinizi bilmək istəyirəm. Seçicilər Sizinlə necə əlaqə yarada bilirlər?***

- Sizinlə razıyam. Nəzərə alsaq ki, parlament üzvü kimi, mən həm də komitə sədrinin müaviniyəm. Onda iş rejmi barədə təsəvvür artıq məlum olur. Rəsmi tədbirlər, görüşlər və digər işlər də öz yerində. Amma yuxarıda suallarınızdan birində bildirdim ki, vaxt tapan kimi, çalışacam seçicilərimlə görüşüm. Artıq belə görüşlər olub. Qaldı əlaqə saxlamaq məsələsinə. Mənim facebook səhifəm var və o səhifə hamı üçün açıqdır. İstənilən seçici müraciət də edə bilər, sual da ünvanlaya bilər. Deputatın statusu haqqında qanuna görə köməkçim var - Tural Əliyev. O, Qazaxada mənim üçün nəzərdə tutulmuş qərargahda oturur. Bu və ya digər məsələlərlə əlaqədar seçicilərim yazılı şəkildə müraciət edə bilərlər. Həmin müraciətlər əsaslandırıldıqdan sonra lazımi ünvanlara yönəldiləcəkdir. Qərargaha (02229) 5-11-06 nömrəli telefona zəng etməklə də seçicilər arzu və istəklərini bildirə bilərlər.

***- Artıq 2016-cı il gəlib. Bu münasibətlə Sizi qəzetimizin çoxsaylı oxucuları adından təbrik edirik. Bununla yanaşı oxucularımız bilmək istəyir ki, rayonumuzda yeni ildə hansı işlər görüləcəkdir? Bu barədə fikirlərinizi bizimlə bölüşməyi xahiş edirəm.***

- Təbrikə görə çox sağ olun. Mən də öz növbəmdə yeni il münasibətilə cənab Prezident başda olmaqla bütün vətəndaşlarımızı, seçicilərimi və sizin kollektivi təbrik edirəm, cansağlığı və uğurlar diləyirəm. Hesab edirəm ki, inşallah bu il xalqımız, millətimiz və rayonumuz üçün düşərli, xeyirli-bərəkətli olacaqdır. Hazırda kifayət qədər uğurlarımız var və təbii ki, problemlərimiz də az deyil.

Qarşımızda duran çox işlər var, mən iqtisadçı olduğuma görə sosial-iqtisadi məsələlərə daha çox diqqət yetirirəm. Rayonumuzda kənd təsərrüfatının inkişafı üçün münbit şərait var. Fermerlərə güzəştli, sərfəli şərtləri olan subsidiyalar ayırmaq lazmdır ki, heyvandarlıq, taxılçılıq, üzümçülük inkişaf etsin. Axı, burada bu sahələrin qədim tarixi var. İşimi əsasən bu istiqamətdə qurmağa çalışacağam. Dünyada neftin ucuzlaşması ilə əlaqədar baş verən iqtisadi çətinliklər 2016-cı ilin heç də asan keçməyəcəyindən xəbər verir. Bu və digər səbəbləri də nəzərə alsaq rayonda aqrar sahənin inkişaf etdirilməsi həm rayon iqtisadiyyatına, həm də işsizliyin qismən də olsa aradan qaldırılmasına köməklik etmiş olar. Bu o demək deyil ki, başqa sahələr diqqətsiz qalacaq. Təbii ki, mədəniyyət, təhsil, səhiyyə və s. məsələlər daima mənim deputat kimi fəaliyyətimin diqqət mərkəzində olacaq.

***İdman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazandığımız medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir.***

# İdmana olan diqqət və qayğı Azərbaycanın dövlət siyasətidir



İdman ictimaiyyəti əmindir ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın daha da inkişafına böyük töhfələr verəcəkdir. İdmançılarımızın hər dəfə beynəlxalq arenalarda qazandıqları qalibiyyətlər, bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amillərdir. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ulu öndər Heydər Əliyevin idmançılarımızdan gözlədiyi məhz qalib olmaq, dövlətimizin adını ucaltmaq idi. Azərbaycan idmançıları bu arzunu beynəlxalq yarışlarda, dünya miqyaslı birinciliklərdə, dünya və avropa çempionatlarında qazandıqları qələbələrlə dəfələrlə həyata keçirmişlər. Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, böyük irəliləyişlər, inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Möhtərəm Prezidentin idmana və idmançılara göstərdiyi böyük diqqət və qayğının nəticəsidir ki, Azərbaycan artıq dünyada həm də idman ölkəsi kimi tanınır. İdmanımızın daha böyük uğurlar qazanması üçün hər birimiz bu sahəyə öz töhfəmizi verməliyik.

Respublikanın bütün bölgələrində olduğu kimi rayonumuzda da idman sahəsinə böyük diqqət və qayğı göstərilir. Rayonumuzda yaradılan "Avey İdman Klubu" bu diqqət və qayğının ən bariz nümunəsidir.

"Avey İdman Klubu" 2015-ci ildə Qazax şəhərində fəaliyyətə başlamışdır. Əvvəllər klub 2010-cu ildən "Olimp İdman Klubu" adı ilə fəaliyyət göstərmişdir. Klubun Prezidenti idmana və idmançılara hər bir zaman dəstəyini əsirgəməyən Arzuman Abdulkərimovdur. Klubun sədri və eyni zamanda baş məşqçisi Şahsuvar Məhyəddinovdur.

İdmançıların yetişməsində, onların uğur əldə etməsində məşqçilər mühüm əhəmiyyət kəsb edir. Bu cəhətdən məşqçilər Fərid Məmmədov və Əmralı Osmanov idman növlərini idmançılara daha dərindən öyrədir, məşqləri yüksək səviyyədə aparırlar. Klubda gənclər müxtəlif idman növləri üzrə məşqlər keçirlər. İdmançıların jiu jitsu növünə maraqları böyükdür. Eyni zamanda, Kokşinkay Karate, Qraplinq MMA (qarışıq döyüş növləri) növləri üzrə də gənclər gərgin məşqlər keçirlər.

Onu da qeyd edək ki, 2015-ci ilin dekabr ayından isə rayonumuzda ilk dəfə olaraq klubun nəzdində Judo Federasiyasının filialı yaradılmışdır. Bu da gənclərin idmanın bu növü ilə daha geniş şəkildə məşğul olmalarına şərait yaratmışdır.

Klub yarandığı gündən bu günə kimi rayonumuzda keçirilən bütün idman tədbirlərinə qatılmış və fəal iştirak etmişdir. Klub bir çox möhtəbər idman yarışlarına ev sahibliyi etmişdir. O cümlədən fəaliyyət göstərdiyi müddətdə 23 respublika çempionu (ayrı-ayrı idman növləri üzrə) və bir neçə mükafatçıları olmuşdur.

2013-cü ildə klubun idmançısı Tapdıq Pənahzadə BƏƏ-nin (Birləşmiş Ərəb Əmirliyi) Əbu-Dabi şəhərində Jiu jitsu idman növü üzrə keçirilən dünya çempionatında dünya ikincisi olmuşdur.

2014-cü ildə Gürcüstanın Poti şəhərində keçirilən "Qafqaz çempionatı"ında klubun idmançıları "Qafqaz kubokunu" ölkəmizə gətirmişdir.

Qazanılan qələbələr bununla bitmir. Klubun üzvləri 2015-ci ildə də böyük uğurlara imza atmışlar. Təkcə onu qeyd edək ki, ötən il Rusiya Federasiyasının Qaraçay Çərkəz Respublikasında keçirilən "Beynəlxalq Döyüş Növləri" festivalında yüksək nəticələr əldə etmişdir. Belə ki, 35 kq çəki dərəcəsində Tapdıq Pənahzadə I yer, 65 kq çəki dərəcəsində Nurlan Qocayev III yer, 84 kq çəki dərəcəsində isə Fərid Məmmədov I yerə layiq görülmüşdür.

2015-ci ilin noyabr ayında Türkiyənin Antalya şəhərində MMA (qarışıq döyüş növləri) üzrə keçirilən dünya çempionatında daha bir qələbə əldə edilmişdir. Klubun ən güclü idmaçılarından biri olan Orxan Vəliyev 74 kq çəki dərəcəsində qızıl medala layiq görülmüşdür.

Bundan başqa klub hər il ənənəvi olaraq ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş həvəskarlar arasında mini futbol turnirləri də təşkil edir. Təbii ki, klubun qazandığı nailiyyətlər, əldə etdikləri uğurlar bunlarla bitmir. Dövlət Başçısı cənab İlham Əliyevin idmana olan diqqət və qayğısı bütün idmançıları yeni-yeni qələbələrə səsləyir.




**Xuraman ƏZİMOVA**

# DEPUTAT KAMRAN NƏBİZADƏ ŞƏHİD AİLƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR



**Milli Məclisin deputatı Kamran Nəbizadə Qazax rayonunda bir qrup şəhid ailəsi ilə görüşmüşdür.**

Görüş zamanı qeyd etmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin nailiyyətlərinin mərkəzində məhz insan amili, ölkə vətəndaşlarının firavanlığının təminatı dayanır. Respublikada bütün sahələrdə özünü göstərən inkişaf dinamikası ildən-ilə güclənən sosial siyasətlə, sosial cəhətdən həssas əhali qruplarına, o cümlədən müharibə əlillərinə və şəhid ailələrinə dövlət qayğısının getdikcə artması ilə müşahidə edilir. Şəhid ailələrinin problemləri və bu problemlərin həlli yolunda görülən işlər daim dövlətin diqqətində dayanan aktual məsələlərdən biri olaraq qalır. Şəhid ailələrinə göstərilən yardımın mənəvi tərəfi daha böyük əhəmiyyətə malikdir.

Görüş zamanı K.Nəbizadə şəhid ailələrinin problemləri ilə maraqlanmış, onları narahat edən məsələləri dinləmiş və bir sıra problemləri qeydə almışdır.

Görüşdə çıxış edən şəhid ailələrinin üzvləri göstərilən diqqət və qayğıya görə dövlət başçısına, onları qəbul edib problemləri ilə maraqlandığı üçün Kamran Nəbizadəyə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Görüşün sonunda şəhid ailələrinə ərzaq bağlamaları paylanılmışdır.

**Elçin İSMAYIL**





# ƏSGƏRLƏRLƏ GÖRÜŞ OLMUŞDUR

**Milli Məclisin deputatı Kamran Nəbizadə növbəti görüşünü ön cəbhədə yerləşən "N" saylı hərbi hissədə əsgərlərlə keçirmişdir. Hərbi hissə ilə tanış olmuş, oradakı şəraitlə maraqlanmışdır.**

Qazax rayon İcra Hakimiyyəti Başçısının I müavini Fərman Nağdalıyev görüşdə iştirak etmişdir.

Kamran Nəbizadə çıxış edərək bildirmişdir ki, hər bir dövlətin varlığı, müqəddəratı onun güclü ordusunun olması ilə səciyyələnir. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Digər tərəfdən, Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsi ilə bağlı görülən işlər nəticə etibarilə orduda aparılan geniş quruculuq işlərinin nəticəsidir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətəni şərəflə qoruyur. Müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin möhkəm əsaslarla qurduğu dövlət bu gün güclü orduya və güclü iqtisadiyyata əsaslanır. İnkişaf və tərəqqisinin yeni mərhələsinə qədəm qoyan nizami ordumuz regionda ən güclü orduya və xalqın güvənc yerinə çevrilib. Ümummilli liderimizin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi ordumuzun qüdrətini günügündən artırır. Ötən il Azadlıq meydanında keçirilən parad Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ideyalarına sədaqət və ehtiramının təntənəsi olmaqla yanaşı, Silahlı Qüvvələrimizin güc və qüdrətinin nümayişinin əyani təzahürü olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra Kamran Nəbizadə və qonaqlar şəxsi heyətlə birlikdə nahar etmişdir. Tədbirin sonunda K.Nəbizadə tərəfindən hərbi hissəyə hədiyyə təqdim olunmuşdur.

# GÖYƏZƏN KURSLARININ NÖVBƏTİ UĞURU

**Göyəzən Kursları 2014-2015-ci tədris ilindən Qazax şəhərində ali məktəblərə hazırlıq məqsədilə öz fəaliyyətinə başlayıb. Kursda IX, X, XI sinif şagirdləri TQDK-nın ali məktəblərə qəbul proqramı əsasında universitetə hazırlaşırlar. Dərslər qız və oğlan günləri ayrı olmaqla I, II, III, IV və V qruplar üzrə elektron lövhələrdə keçirilir.**

Hazırlıq müddətində TQDK-nın fənlər üzrə bütün dərs və test vəsaitləri mənimsədilir. Bundan əlavə kurs dinləyicilərinə "Güvən", eləcə də "Dəyər" nəşriyyatın bütün nəşrləri, həmçinin Göyəzən çantaları pulsuz verilir. Bütün dinləyicilərə mövzular üzrə həftəlik yarpaq testləri işlədilir və ayda bir dəfə imtahan keçirilərək daimi inkişaf tempi müşahidə olunur. Bundan başqa V, VI, VII, VIII siniflər üçün orta məktəbdə öyrəndikləri biliklərin möhkəmləndirilməsi, test vərdişlərinin artırılması və məntiqi təfəkkürün inkişaf etdirilməsi istiqamətində Ana dili, Riyaziyyat, Məntiq və İngilis dili fənlərindən təkmilləşdirmə məşğələləri təşkil olunur və ayda bir dəfə imtahan keçirilir. 5-12 yaşlı uşaqlar üçün Mental Arifmetika - sürətli hesablama dərsləri, eləcə də ibtidai sinif şagirdləri üçün evə verilmiş tapşırıqların həll olunmasına kömək, sürətli oxumanı təmin etmək məqsədilə həftədə 5 gün olmaqla məşğələlər keçirilir.

Göyəzən Kursları Qazax rayonu ilə yanaşı, Ağstafa və Tovuz rayon məktəbləri ilə də əməkdaşlıq edir. Belə ki, hər üç rayonda şagirdlərin özlərini sınamaları üçün aylıq sınaq imtahanları keçirir və şagirdlər orta məktəbdə yiyələndikləri bilikləri hər ay ölçə bilirlər. Bu da gələcəkdə onların ali məktəblərə qəbul imtahanlarında müvəffəqiyyət qazanmalarına stimul verir.




Göyəzən Kursları 2015-ci tədris ilində Bilik Yarışı keçirmişdir. Ali məktəblərə hazırlıq istiqamətində V-X sinif şagirdləri arasında keçirilən yarışda məqsəd şagirdlərin bilik və bacarıqlarını müəyyənləşdirmək, onların bu istiqamətdə əldə etdikləri bilik səviyyəsini yoxlamaq olmuşdur. Həmçinin kurs tərəfindən keçirilən bu yarışda məqsəd şagirdlərin test vərdişlərini artırmaq, imtahan həyəcanını minimuma endirmək, daha fəal, çalışqan, istedadlı şagirdləri üzə çıxarıb mükafatlandırmaq və ən əsası gözəl Azərbaycanımızın gələcəyi üçün hazırlanan həmin yeniyetmə və gənclərin müsbət istiqamətdə inkişafında az da olsa paya sahib olmaqdan ibarətdir. Yarışda Qazax, Ağstafa və Tovuz məktəblərindən ümumilikdə 2000-dən çox şagird iştirak etmiş və öz biliklərini sınamışdır.

9 yanvar 2016-cı il tarixdə həmin Bilik Yarışında yer tutan şagirdləri mükafatlandırmaq məqsədilə Göyəzən Kurslarının akt zalında təqdimat mərasimi keçirilmişdir. Təqdimatda rayon Təhsil şöbələrinin nümayəndələri, məktəb direktorları, rayon idarələrinin nümayəndələri, yer tutan şagirdlərin valideynləri, KİV nümayəndələri və həmin günün səbəbkarları iştirak etmişdir.




Əvvəlcədən söz verildiyi kimi IX, X siniflər arasında hər sinif və hər qrup üzrə ilk 3 yeri tutan Qazax, Ağstafa və Tovuz şagirdləri, V-VIII siniflər arasında hər sinif üzrə ilk 5 yeri tutan Qazax məktəbliləri, ümumilikdə 50 şagird mükafatlandırılmışdır. Bütün qaliblər Fəxri Fərmanla təltif olunmuş, onlara qiymətli hədiyyələr - planşetlər, rəqəmsal fotoaparatlar, brend qol saatları, Göyəzən Kurslarının məktəbli çantaları, müxtəlif məktəb ləvazimatları təqdim olunmuşdur. Təqdimatda bütün şagirdlərə "Dəyər" nəşriyyatın nəşrləri hədiyyə verilmişdir. Bundan başqa Qafqaz Universiteti V-VIII siniflər üzrə yer tutan hər bir məktəbliyə üstündə universitetin loqosu olan qol saatları hədiyyə etmişdir. İmtahanlarda iştirak edən şagird sayının çoxluğuna görə fərqlənən Aslanbəyli kənd tam orta məktəbinə televizor, Daş Salahlı kənd 1 saylı tam orta məktəbə isə planşet təqdim edilmişdir.

Sonda Göyəzən Kurslarının direktoru Taleh Həsənov çıxış edərək bütün qalibləri təbrik etmiş, onlara ali zirvəyə aparan bu yolda uğurlar arzulamışdır. T.Həsənov belə yarışların davamlı olaraq keçiriləcəyini vurğulamış, Bilik Yarışının, o cümlədən təqdimatın keçirilməsinə yaxından dəstək olan hər üç rayonun İcra Hakimiyyətinə və Təhsil şöbəsinə dərin minnətdarlığını bildirmişdir.

**"GÖYƏZƏN"**

## Çövkən milli oyununda Qazax rayon komandası birinci yerə layiq görülmüşdür

**Azərbaycan xalqının qeyri-maddi mədəni irsininin ayrılmaz hissəsi olan milli atüstü oyunların qorunub saxlanılması, qədim tarixə malik atçılıq ənənələrinin bərpası, ölkəmizdə atçılıq turizminin təbliği, gənc nəsildə bu sahələrə marağın artırılması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2015-ci ilin 16-21 dekabr tarixlərində Şəki şəhərində Prezident Kuboku uğrunda X çövkən milli oyunları keçirilmişdir.**


Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi
Diplom
Baharbənd milli oyununda
birinci yer tutduğuna görə
Qazax rayon Mədəniyyət və Turizm şöbəsi
təltif olunur
Nazir Əbülfəs Qarayev
Şəki şəhəri
16-21 dekabr 2015-ci il

Yarışda Qazax rayonunun çövkən oyunu üzrə komandası da iştirak etmişdir. Yarış Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən təşkil olunmuşdur.

Keçirilmiş oyunlarda Qazax rayonunun komandası 21 komanda arasında birinci yerə layiq görülmüş və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Diplomla təltif olunmuşdur.

Bu böyük qələbə münasibətilə komandamızı təbrik edir, onlara gələcək yarışlarda da yeni-yeni uğurlar arzulayırıq.

## QABAQCIL TƏCRÜBƏNİN YAYILMASI

**Azərbaycan Respublikası Təhsil Nazirliyi ölkənin təhsil müəssisələrində kurikulumların tətbiqi və keçirilməsi ilə bağlı bütün zəruri tədbirləri görməkdə davam edir. Məqsədyönlü şəkildə aparılan işlər artıq öz bəhrəsini verməkdədir.**

Qazax rayon Təhsil şöbəsi də yeni təhsil sistemi ilə bağlı işlərin təşkili və keçirilməsinə xüsusi diqqət verməkdədir. Artıq rayonun bir çox müəllimləri açıq dərslərini təşkil edir, qəzet və jurnallarda məqalələrlə çıxış edirlər. Sevindirici haldır ki, müəyyən fənlər üzrə iş təcrübələrinin yayılması da vüsət almağa başlamışdır. Belə ki, 8 dekabr 2015-ci il tarixdə Qazax rayon Təhsil şöbəsi üzrə fiziki tərbiyə müəllimləri İ.Şıxlı adına Kosalar kənd tam orta məktəbinin idman zalına toplaşmışdır. Həmin gün məktəbin fiziki tərbiyə müəllimi Rayət Əliyevin iş təcrübəsinin nümayişi və yayılması tədbiri keçirilmişdir. Rayət müəllim 2013-cü ildən yeni fənn kurikulumları ilə dərsləri təlim etməyə başlamış və hər tədris ilində açıq dərslərini rayon səviyyəsinə çıxarmışdır. Dərsləri yüksək səviyyədə quran, innovatik təlimə nail olan Rayət müəllimin qabaqcıl təcrübəsinin yayılması tədbiri də maraqlı olmuşdur. Tədbir proqramı iki hissədən: təcrübi və nəzəriyyə hissələrindən ibarət olmuşdur. "Təcrübi" hissədə şagirdlərin nümunəvi raportu, "Heyrati" zərb muğamı altında sıra təlimləri, "Yallı" musiqisi altında kompleks hərəkətlərin icrası nümayiş edilmişdir. "Nəzəri" hissə 3 yerə bölünmüşdür: "Müasir dərs", "Zəruri sənədlər" və "Təhsilin inkişaf yolları". Qabaqcıl təcrübənin yayılması Kosalar kənd tam orta məktəbinin VIIb sinfinin iştirakı ilə birgə aparılmışdır. VIIb sinfinin nümunəvi çıxışları, Rayət müəllimin müasir dərslə bağlı izahları, fikirləri, təhsilin inkişaf yolları ilə bağlı mülahizələri diqqət doğurmaya bilməzdi. Belə ki, Rayət müəllimə görə təhsilin inkişafı ilk növbədə müəllimlərin yüksək peşə hazırlığından, ikincisi müasir texnologiyanın tətbiqindən və müəllim işinə verilən qiymətləndirmədən asılıdır.

Təcrübənin yayılmasında Qazax rayon Təhsil şöbəsinin fiziki tərbiyə üzrə metodisti P.Alməmmədov başda olmaqla, 20-dən çox müəllim, xüsusi ilə də gənc müəllimlər iştirak etmişdir. Onların iştirakı ilə keçirilən tədbir uğurla başa çatmışdır. Tədbirin sonunda bütün müəllimlərə zəruri sənədlərin nümunələri paylanmışdır. (Tədbir YouYube-yə yerləşdirilmişdir. Giriş kodu belədir: rayet eliyev) Qabaqcıl təcrübənin yayılması bütün müəllimlər, xüsusilə də gənc müəllimlər üçün daha da önəmlidir. Yeni işə başlayan gənc fiziki tərbiyə müəllimləri Elvin Əliyevin və Ramin Rzayevin təəssüratları daha böyük olmuşdur. Rayət müəllim tədbirin keçirilməsində göstərdiyi qayğıya görə rayon Təhsil şöbəsinin rəhbəri Nizaməddin Babanlıya öz minnətdarlığını bildirmişdir. Yekunda xatirə şəkli çəkdirilmişdir.

**"GÖYƏZƏN"**

**Mərkəzi Kitabxananın Oxu zalında 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş "20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi" mövzusunda anım tədbiri keçirilmişdir. Tədbirdə vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.**

## "20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi"

MKS-nin direktoru Solmaz Babanlı çıxış edərək qeyd etmişdir ki, 1990-cı ilin 20 yanvarında baş verən hadisələr xalqımızın azadlıq tarixində həm faciəli, həm də şərəfli bir səhifədir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə nəhəng sovet imperiyası Bakıya qoşun yeridərək milli azadlıq ruhlu, əliyalın insanları vəhşicəsinə qətlə yetirdi, cismən öldürdü. Lakin xalq öz milli azadlığı, istiqlalı uğrunda mübarizədə böyük iradə və qətiyyətlə daha da birləşdi, dünyaya bir azərbaycançılıq məfkurəsi sübut etdi... Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ildə 20 Yanvar hadisəsinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. Həmin gün - 20 Yanvar Ümumxalq Hüzn Günü kimi elan edildi.

Tədbirdə Mərkəzi Kitabxananın Uşaq şöbəsinin İnformasiya texnologiyaları üzrə mütəxəssisi Aytəkin Quliyeva "20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi" mövzusunda məruzə ilə çıxış etmişdir. Çıxışda qeyd edilmişdir ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının hüzn və şərəf günüdür. 26 il öncə xalqımız qırmızı imperiyanın "Qızıl Ordu"sunun, sovet hərb maşınının hücumuna məruz qalmış, günahsız insanlar gülləbaran edilmiş, milli heysiyyatımız tankların tırtılları altına atılmışdı... XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar dinc əhaliyə qarşı həyata keçirilən dəhşətli cəza tədbiri kimi tarixə yazıldı. O gün heç kəs başını aşağı əymədi, "Azadlıq" sədaları göylərə qalxdı... İndi nəyin bahasına olursa-olsun biz hamımız azadlığımızı qorumalıyıq. Budur bizim şəhidlər qarşısında müqəddəs borcumuz!

Məruzə ətrafında çıxış edən direktor müavini Münəvvər Süleymanlı qeyd etmişdir ki, 20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil, həm də xalqımızın şan və şərəf günüdür. Çünki xalqının azadlığını, şərəf və ləyaqətini canından uca tutanlar şəhidlik zirvəsinə ucaldılar. Vətən, torpaq isə şəhidləri ilə ucalır.

Tədbirdə şəhər 1 saylı tam orta məktəbin VIII sinif şagirdi Xəyalə Musayeva, VI sinif şagirdləri Xumar Hüseynova, Zülfiyyə Paşayeva, humanitar və təbiət təmayüllü məktəb-liseyin IV sinif şagirdi Ayşən Əhmədova, VI sinif şagirdi Aqil Əhmədov, V sinif şagirdi Ziyad Paşayev, 4 saylı tam orta məktəbin IV sinif şagirdi Solmaz Qurbanova xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər", Azərbaycan Respublikasının Əməkdar Jurnalisti, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevin"Dəli bir ağlamaq keçir könlümdən"və gənc şair Rəşad Həsənlinin 20 Yanvar şəhidlərinə həsr olunmuş şeirlərini söyləmişlər.

Tədbirin sonunda "20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi" adlı sərgiyə baxış keçirilmişdir.

**Fatma HÜSEYNOVA,**
**metodika və biblioqrafiya şöbəsinin müdiri**

## "Azərbaycanın məşhur general yazıçısı"

**Mərkəzi Kitabxananın oxu zalında İsmayıl bəy Qutqaşınlının anadan olmasının 210 illiyinə həsr olunmuş "Azərbaycanın məşhur general yazıçısı" adlı tədbir keçirilmişdir. Tədbirdə mədəniyyət işçiləri və fəal oxucular iştirak etmişdir.**

Tədbiri giriş sözü ilə açan MKS-nin direktoru Solmaz Babanlı İsmayıl bəy Qutqaşınlının Azərbaycan ədəbiyyatına nəsr, hekayə janrını gətirən ilk yazıçı olduğunu qeyd etmişdir. Milli-mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunub gələcək nəsillərə çatdırılması istiqamətində vaxtaşırı belə tədbirlərin keçirilməsinin böyük rolu olduğunu bildirmişdir.

Şəhər multimedia kitabxana filialında multimedia resursları üzrə mütəxəssis Rufina Namazova "Azərbaycanın məşhur general yazıçısı" adlı məruzə ilə çıxış edərək İsmayıl bəy Qutqaşınlının Azərbaycanın görkəmli ictimai və hərbi xadimi kimi fəaliyyət göstərməsindən söz açmışdır.

Metodika və biblioqrafiya şöbəsinin müdiri Fatma Hüseynova çıxışında İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsinin yeni Azərbaycan ədəbiyyatının Avropa dilində çap olunan ilk nümunəsi olduğunu qeyd etmişdir.

Tədbirin sonunda İsmayıl bəy Qutqaşınlıya həsr olunmuş sərgiyə baxış keçirilmişdir.

**Münəvvər SÜLEYMANLI,**
**MKS-nin direktor müavini**

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA VAKANT OLAN ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Respublikanının şəhər, rayon polis idarə və şöbələrində /Naxçıvan MR, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ orta rəis heyəti vəzifələrinə hüquqşünas ixtisaslı mütəxəssislərin xidmətə qəbulu ilə əlaqədar müsabiqə keçirilir.**

Cəmi 150 vəzifənin tutulması ilə əlaqədar keçirilən müsabiqə müsahibədən və test imtahanından ibarətdir. Müsahibə - "Azərbaycan Respublikasının Daxili İşlər Orqanında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə, test imtahanları - müsahibədən müvəffəqiyyətlə keçmiş namizədlərlə daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən qanunvericiliyə, insan hüquq və azadlıqlarına dair beynəlxalq aktlara aid, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən proqram və onu əhatə edən suallar üzrə Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış (xarici dövlətlərin təhsil müəssisələrinin yalnız əyani şöbəsini bitirmiş və ixtisasları Azərbaycan Respublikasında tanınmış), yaşı 30-dan yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər mia.gov.az./?/az/content/29779/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsilə info@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsində qeydə götürülməsi barədə elektron poçt vasitəsilə müvafiq məlumat aldıqdan sonra namizədlər yaşadıqları ərazi polis idarələrinə, şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər.

- **şəxsiyyət vəsiqəsi;**
- **ali təhsil haqqında diplom;**
- **hərbi bilet;**
- **əmək kitabçası (olanlar üçün);**

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

"Daxili İşlər Orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2016-cı il yanvar ayının 21-dən fevral ayının 21-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 18-dək şəhər, rayon polis idarə və şöbələrində qəbul olunur.

**DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANLARININ PROQRAMI**

Daxili İşlər Orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər.

*1) Qanunvericilik aktları:*

- **Azərbaycan Respublikasının Konstitusiyası;**
- **Azərbaycan Respublikasının Cinayət Məcəlləsi;**
- **Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi;**
- **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi;**
- **BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsi;**
- **"Polis haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Azərbaycan Respublikasının Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu;**
- **"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu;**
- **"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunu;**
- **"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Qanunu;**

*2) Nəzəri bilik sahələri:*

- **Dövlət və hüquq nəzəriyyəsi;**
- **Kriminalistikanın əsasları;**
- **Kriminalogiyanın əsasları;**

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: Qazax RPŞ-si**
**(070) 725-87-82**
**(050) 392-02-21**
**(022) 295-14-97**

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*